*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    4 may 2019-cu il  № 34 (2351)    Qiymıəti 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq

*Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*



Prezident İlham Əliyev 2019-cu ilin birinci rübünün ölkəmiz üçün uğurlu olduğunu, dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik inkişaf etdiyini bildirib. Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının qəbul edildiyini qeyd edən dövlətimizin başçısı ölkəmizdə ictimai-siyasi sabitliyin və iqtisadi yüksəlişin təmin olunduğunu, əhalinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində bu ilin birinci rübündə də addımlar atıldığını, xarici siyasət sahəsində bir sıra uğurların əldə edildiyini vurğulayıb.

Ölkə başçısı ötən il keçirilən prezident seçkilərindən sonra aparılan islahatların yeni mərhələyə qədəm qoyduğunu qeyd edib və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atıldığını deyib. "Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır".

Prezident İlham Əliyev onu da bildirib ki, ölkədə əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. "Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək", - deyən dövlətimizin başçısı vurğulayıb ki, minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. "Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək".

Çıxışında Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunub. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimizdə heç bir dəyişiklik olmadığını qeyd edib. "Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur", - deyə Prezident bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. "Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə həsab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək".

**"Azərbaycan Ordusu"**

# Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb

*Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmiləri iştirak edirlər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki Foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Dövlətimizin başçısı V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söylədi.

AZƏRBAYCAN ORDUSU

## Müdafiə naziri general-polkovnik Zakir Həsənov:

# Azərbaycan ilə NATO arasında 25 illik dayanıqlı tərəfdaşlıq mövcuddur

NATO ilə tərəfdaşlığımızın 25-ci ildönümünün qeyd edilməsi bizim əməkdaşlıqda qazandığımız nailiyyətlərimizin təcəssümüdür. Bu uğur Azərbaycanın 25 il əvvəl çətin bir zaman kəsiyində qərar verdiyi istiqamətlər üzrə həyata keçirdiyi kompleks fəaliyyətlərin nəticəsidir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin may ayının 4-də Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədini imzalaması ilə Azərbaycan SNT proqramına qoşulub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu proqram NATO ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri arasında səmərəli hərbi əməkdaşlığın və uyarlığın təmin olunmasında ən uğurlu mexanizmlərdən biri kimi özünü doğrultmuşdur.

NATO ilə qarşılıqlı maraqlar çərçivəsində tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycan Ordusunun hərbi əməkdaşlığının əsas prioritet istiqamətlərindən biridir. Azərbaycan ilə NATO arasında qurulmuş tərəfdaşlıq və müxtəlif sülhməramlı missiyalarda birgə fəaliyyət ölkəmizin Avro-Atlantik məkanda təhlükəsizliyi və sabitliyi təmin etmək üçün göstərdiyi səylərin və xoşməramlı niyyətimizin bariz nümunəsidir.

Azərbaycan üzləşdiyi çağırışlara baxmayaraq, ilk günlərdən etibarən Kosovoda və Əfqanıstanda NATO-nun başçılığı altında həyata keçirilən əməliyyatlara qatılaraq beynəlxalq sabitliyə nail olmaq üçün töhfəsini vermişdir.

Əfqanıstan İslam Respublikasında həyata keçirilən Qətiyyətli Dəstək missiyasının bu ölkənin təhlükəsizliyi və davamlı inkişafı, o cümlədən regional və qlobal təhlükəsizlik üçün əhəmiyyətini bilərək biz 2018-ci ildən etibarən Əfqanıstandakı hərbi kontingentimizin sayını 30 faiz artırmışıq. Göstərilən hərbi dəstəyə əlavə olaraq Azərbaycanın Əfqanıstana töhfəsi siyasi, maddi-texniki dəstək, quru-hava tranziti, həmçinin müxtəlif treninqlər, minadan təmizləmə və maliyyə dəstəyi kimi digər qeyri-hərbi yardımları da ehtiva edir.

Biz çox yaxşı dərk edirik ki, qloballaşan dünyada hər bir böhran və ya münaqişə digər ölkələrə təsirsiz ötüşmür və bu kontekstdə Azərbaycan Avro-Atlantik məkanda sülhə və təhlükəsizliyə nail olmaq üçün NATO ilə əməkdaşlıq edir və bundan sonra da edəcəkdir.



Təsadüfi deyil ki, Azərbaycan Planlaşdırma və Analiz Prosesinə qoşulan ilk ölkələrdən biridir. Praktiki əməkdaşlığın təməlini təşkil edən bu mexanizm müasir ordu quruculuğunun əsaslarına söykənən müdafiə islahatlarının həyata keçirilməsinə, zəruri əməliyyat uyarlığının təmin edilməsinə və Silahlı Qüvvələrin transformasiyasına töhfə verir.

Xüsusi ilə qeyd etmək istərdim ki, Azərbaycan Ordusu əməliyyat uyarlığına nail olmaq üçün NATO-nun Əməliyyat İmkanları Konsepsiyası Qiymətləndirmə və Rəy Proqramından səmərəli istifadə edir. Azərbaycan Ordusu 2004-cü ildə proqrama bir bölüklə qoşulmuş, bu gün isə bütün qoşun növlərindən olan bölmələr bu proqrama cəlb edilmişdir. Hərbçilərimiz qazandıqları təcrübə ilə təkcə respublika daxilində deyil, həm də digər tərəfdaş ölkələrlə bölüşərək proqramın inkişafına töhfə verirlər.

Təbii ki, hərbi sahədə müvəffəqiyyətə nail olunması əməliyyat uyarlığı səviyyəsi ilə düz mütənasibdir. Lakin dayanıqlı tərəfdaşlığın əldə edilməsi insan uyarlığının və həmfikirliyin əldə olunması ilə bağlı olan danılmaz bir faktdır. Bu kontekstdə mən NATO-nun Tərəfdaşlığın Qərargah Vəzifəsi proqramını xüsusi ilə qeyd etmək istərdim.

2002-ci ildən bu günədək Azərbaycan Ordusunun ümumilikdə 24 zabiti bu proqram çərçivəsində NATO-nun müxtəlif struktur və qərargahlarında xidmət edib. Hazırda da NATO qərargahlarında 8 zabitimiz xidmət edir. Bu müddət ərzində beynəlxalq mühitdə əldə olunmuş təcrübə zabitlərimizin ölkəyə qayıtdıqdan sonra milli vəzifələrdəki xidmətlərinə müsbət təsirini göstərir. Çoxmillətli strukturlarda əldə edilmiş bilik və bacarıqlar milli təcrübəyə inteqrasiya olunaraq ordumuzun döyüş qabiliyyətinin daha da inkişaf etdirilməsinə töhfəsini verir.

Bizim NATO ilə substantiv əməkdaşlığımız Alyansın təhsil və təlim standartlarının peşəkar hərbi təhsil sistemimizə inteqrasiya edilməsini də əhatə edir. On ildən artıqdır ki, Azərbaycan NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi" proqramı çərçivəsində yeni çağırışlara, mürəkkəb və dinamik strateji mühitdə bütün növ təhdidlərə cavab verə biləcək liderlərin hazırlanmasını həyata keçirir.

NATO-nun müxtəlif əməkdaşlıq proqramları müsbət dəyişikliklər istiqamətində təsirli vasitə kimi özünü göstərir. Düşünürük ki, Avro-Atlantik məkanının ümumi sabitliyi və təhlükəsizliyi regional ölkələrin apardıqları daxili islahatlardan və beynəlxalq əməkdaşlıqdan asılıdır. Bizim yaxından iştirak etdiyimiz NATO-nun tərəfdaşlıq mexanizmləri və əməkdaşlıq proqramları Azərbaycanın, eləcə də bütün regionun müdafiə və təhlükəsizlik sahəsində islahatlar üçün çərçivənin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır və regional, o cümlədən Avro-Atlantik məkanın təhlükəsizliyini möhkəmləndirir.

Qeyd etmək lazımdır ki, üzvlərinin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyinin qorunması baxımından Alyansın tarixi müvəffəqiyyətləri, SNT ölkələri də daxil olmaqla müxtəlif tərəfdaş dövlətlərin NATO ilə əməkdaşlığının başlıca amillərindən biridir. Alyans təkcə bu prinsipləri dəstəkləməklə kifayətlənmir, həm də Avro-Atlantik təhlükəsizliyin əsası kimi onları siyasi cəhətdən müdafiə edir. Bu kontekstdə Cənubi Qafqazdakı münaqişələrin həll edilməsi istiqamətində NATO-nun nümayiş etdirdiyi qəti mövqe təqdirəlayiqdir. Azərbaycan da ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyinə görə NATO-ya minnətdardır.

Avropa ilə Asiya arasında yerləşən Cənubi Qafqaz, xüsusilə Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Cənubi Qafqaz Avropanın enerji təhlükəsizliyi baxımından olduqca əhəmiyyətli bir regiondur. Bölgədəki həll olunmamış münaqişələrin mövcudluğu Avropanın təkcə enerji təhlükəsizliyinə deyil, həmçinin sabitliyinə də böyük təhdid təşkil edir. Bu baxımdan, münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Nizamnaməsinin tələblərinə uyğun həll edilməsi beynəlxalq ictimaiyyətin marağındadır.

Ölkəmiz hər zaman sülh ideyalarına sadiqliyini nümayiş etdirir və müvafiq siyasəti həyata keçirməklə regional və qlobal miqyasda sabitliyin saxlanılmasını hər vəchlə dəstəkləyir. 25 illik çoxşaxəli əməkdaşlığımız, sülhməramlı əməliyyatlar çərçivəsində beynəlxalq sülhə verdiyimiz töhfə və Avro-Atlantik məkanda sülhə nail olmaq istiqamətində həyata keçirdiyimiz uğurlu layihələr müvəffəqiyyətli tərəfdaşlığımızın təzahürüdür. İnanıram ki, bu günədək əməkdaşlıqda qazanılmış nailiyyətlər gələcək uğurlarımızın carçısıdır.

Əminəm ki, biz bu strateji əhəmiyyətli tərəfdaşlığı inkişaf etdirməyə və gücləndirməyə davam edəcəyik.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Gürcüstanda Silahlı Qüvvələr Günü qeyd olunub

Aprelin 30-da Gürcüstanda Silahlı Qüvvələr (SQ) Günü qeyd olunub.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə paytaxt Tbilisi ilə yanaşı, ölkənin digər şəhər və rayonlarında təntənəli bayram tədbirləri keçirilib.

Tbilisi yaxınlığındakı Vaziani hərbi bazasında keçirilən mərasimdə Prezident Salome Zurabişvili, Baş nazir Mamuka Baxtadze, hökumət və dövlət rəsmiləri, diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Baş nazir Mamuka Baxtadze, müdafiə naziri Levan İzoria, Baş qərargah rəisi general-mayor Vladimir Çiçabaya şəxsi heyəti təbrik ediblər.

Mərasimdə hərbi xidmətdə fərqlənən bir qrup hərbçiyə orden, medal və digər fəxri adlar, mükafatlar təqdim olunub.

Türkiyə Silahlı Qüvvələrinin briqada generalı Həsən Hüseyn Kanbur Gürcüstan hərbçilərinə NATO-nun medallarını təqdim edib.

Azərbaycanın Gürcüstandakı səfirliyinin hərbi attaşe aparatının rəhbəri polkovnik-leytenant Fuad İbrahimov Azərbaycanın Müdafiə naziri və Baş Qərargah rəisi adından Gürcüstan Müdafiə Nazirliyi rəhbərliyini təbrik edib, qonşu ölkənin Silahlı Qüvvələrinə uğurlar, qardaş gürcü xalqına firavanlıq, əmin-amanlıq arzulayıb.

Məlumat üçün qeyd edək ki, müstəqil Gürcüstanın Silahlı Qüvvələri 1991-ci il aprelin 30-da yaranıb. Məhz həmin gün Gürcüstan Daxili Qoşunlarının tərkibində olan Milli Qvardiyaya ilk əsgər qəbul edilib.

Əsgərlər qvardiyaya ilk dəfə olaraq hərbi xidmətə çağırış əsasında daxil olublar.

Bir müddət əvvəl Gürcüstan Milli Təhlükəsizlik Şurasının qərarına əsasən, Silahlı Qüvvələr Gürcüstanın Müdafiə Qüvvələri adlandırılıb. Müdafiə Qüvvələrinin sayı 37 min nəfər müəyyən olunub.

Silahlı Qüvvələrə Müdafiə Nazirliyinə tabe olan Baş qərargah rəhbərlik edir.

Bu gün Gürcüstan ordusu əsasən müqavilə əsasında xidmətə gələnlərdən formalaşsa da, ordu sıralarında hər il 18 yaşı tamam olmuş gənclər həqiqi hərbi xidmətə çağırılırlar.

Hərbi xidmət çağırışçılar üçün bir il nəzərdə tutulub.

# "IDEF-2019" XIV beynəlxalq müdafiə sənayesi sərgisində Azərbaycan da təmsil olundu



*Azərbaycanda sənaye müəssisələri arasında müdafiə sənayesi məhsulları istehsal edən strateji əhəmiyyətə malik zavodların fəaliyyətə başlaması respublikamızın kompleks inkişaf yolunda qazandığı böyük nailiyyətdir. Silahlı Qüvvələrimizin modernləşdirilməsi, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər mühüm işlər görülüb. Artıq ordumuz yeni texniki imkanlar əldə etməklə müasir dünyada təcrübədən çıxmış müharibə və döyüş taktikalarını da mənimsəyib. Bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malik ölkədir. Cənubi Qafqazda ən güclü ordunun Azərbaycana məxsus olması həm region, həm də dünya dövlətləri tərəfindən etiraf olunur. Bu inkişafın əsasında müasir dövrün tələblərinə müvafiq olaraq uğurla reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi hazırkı dinamik inkişafın əsaslarını təşkil edir.*

Bu gün Azərbaycan dövlətinin iqtisadi, siyasi, sosial həyatında inkişafın strateji istiqamətlərinin müəyyənləşdirilməsi, nəzərdə tutulan vəzifələrin reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, sivilizasiyalararası dialoq mərkəzi kimi tanınan Azərbaycanın özünü doğruldan, dəstəklənən xarici siyasəti beynəlxalq hadisələrə təsir imkanları baxımından da əhəmiyyətlidir. Ölkəmizin iştirak etdiyi beynəlxalq tədbirlərdə müzakirə olunan bəşəri əhəmiyyətli məsələlər, humanitar forumlar, dialoqlar, dövlət başçımızın xarici ölkələrə rəsmi və işgüzar səfərləri diplomatiyamızın uğurudur.

Ordunun maddi-texniki bazasının yerli məhsullar hesabına genişləndirilməsi də daim diqqət mərkəzindədir. Ölkəmizdə modern müdafiə sənayesi yaradılıb, ordu quruculuğu güclü hərbi sənaye ilə dəstəklənir.

2005-ci ildə yaradılan Müdafiə Sənayesi Nazirliyinin (indiki "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin) fəaliyyət istiqamətlərinə əsasən, müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini, habelə, müdafiə sənayesi sahəsinin inkişafını təmin etmək, dövlət sifarişi əsasında hərbi texnika, silah, mühəndis texnikası, ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsullar üzrə Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq müdafiə təyinatlı məhsulların yaradılmasını, istehsalını, təkmilləşdirilməsini, təmirini, utilizasiyasını, idxal-ixracını təmin etmək daxildir.

Nazirliyin nəzdində olan müəssisələrdə istehsal olunan yüzlərlə adda məhsul yüksək keyfiyyəti ilə müasir tələblərə cavab verir. Məhz bunun nəticəsidir ki, Azərbaycanın xarici silah bazarlarından asılılığı əhəmiyyətli dərəcədə azalıb. Artıq ordumuzun müxtəlif döyüş texnikalarına olan tələbatının xeyli hissəsi daxili istehsal hesabına təmin edilir.

Milli hərbi-sənaye kompleksində istehsal olunan müxtəlif növ döyüş texnikası qısa müddətdə xarici bazarlara yol tapıb. Son illərdə ölkəmizin hərbi-sənaye kompleksinə daxil olan müəssisələrdə buraxılan müxtəlif növ döyüş texnikası beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilir ki, bu da respublikamızda hazırlanan hərbi təyinatlı məhsulların geniş rəqabət imkanlarına malik olmasının təsdiqidir.

Aprelin 30-da İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə "IDEF-2019" XIV beynəlxalq müdafiə sənayesi sərgisində Azərbaycanın təmsil olunması da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 70 ölkədən 1061 şirkət və 500-dən çox rəsmi nümayəndə heyətinin qatıldığı "IDEF-2019" sərgisində milli pavilyonla təmsil olunan Müdafiə Sənayesi Nazirliyinin ("Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin) nümayiş etdirdiyi məmulatlar - snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar, minaatanlar, pirotexniki vasitələr, optik sistemlər, döyüş maşınları, pilotsuz uçuş aparatları, müxtəlif çaplı döyüş sursatları və digər hərbi təyinatlı məhsullar tədbirin birinci günündə böyük maraqla qarşılanıb.

Türkiyə Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov "IDEF-2019" beynəlxalq müdafiə sərgisində nümayiş etdirilən müxtəlif şirkətlərin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrə baxış keçirib.

Sərgi çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dost və müttəfiq ölkələrin rəsmi nümayəndə heyətləri, habelə, bu sektorda fəaliyyət göstərən aparıcı firmaların nümayəndələri ilə görüşləri də təşkil olunub.



Aprelin 30-da İstanbulda keçirilən "IDEF-2019" beynəlxalq müdafiə sərgisi çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Cibuti Respublikasının Müdafiə naziri Əli Hassan Bahdon ilə görüşüb.

Tərəflər hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 1-də Türkiyəli həmkarı Hulusi Akar ilə də görüşüb. Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri, regionda sabitliyin təmin edilməsində Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin rolu müzakirə olunub.




Tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq, birgə təlimlərin keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

"IDEF-2019" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün yaxşı imkan yaradıb. "IDEF-2019" beynəlxalq müdafiə sərgisi Azərbaycanın hərbi potensialını, hərbi gücünü nümayiş etdirmək baxımından mühüm tədbirdir.

Ölkəmizdə 1200 adda hərbi məhsullar istehsal olunur. Bu məhsullar həm də xarici ölkələrdə keçirilən sərgilərdə nümayiş etdirilir. Bu sərgi bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycanın güclü iqtisadiyyatı var, güclü hərbi-sənaye kompleksi formalaşmaqdadır və Azərbaycan təkcə hərbi məhsullar istehsal etmir, həm də onun perspektivli ixracatçısına çevrilib. Sərgi, eyni zamanda, sübut etdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda hərbi quruculuq, ordumuzun gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzindədir.

Azərbaycan beynəlxalq müdafiə sərgilərində alıcı kimi iştirak edirdisə, bu gün artıq ölkəmiz silah ixrac edən dövlətə çevrilib. Bu gün IDEF kimi sərgilərdə Azərbaycanın istehsalı olan silahların nümayiş olunması çox sevindiricidir. Sərgi onu da göstərdi ki, dünya ölkələri Azərbaycanda istehsal olunan silahlara maraq göstərir. Ölkəmiz öz silah təminatını ödəmək qabiliyyətindədir. Belə olan halda, digər dövlətlər burada münaqişənin olmasını deyil, barış bölgəsi olmasını arzulayır.

İştirakçılar, ziyarətçilər və şirkətlər arasında qarşılıqlı informasiya mübadiləsi olub və gələcək uğurların yeni təməli qoyulub.

"IDEF-2019" sərgisində, eyni zamanda, müəssisə, şirkət və dövlət qurumlarımız Azərbaycan Respublikasını təmsil edirdi. Bu da azərbaycanlı istehsalçıların ixrac yönümlü fəaliyyətinə və xarici bazarlara çıxmasına imkan yaratdı və onlara bu işdə yardım etdi. Bütün bu amillər də Azərbaycanın iqtisadiyyatına qoyulan sərmayələrin artmasına səbəb olacaq. Nəticədə, bəzi maraqlı nüansları ilə yadda qalan "IDEF-2019" sərgisi yeni əməkdaşlıq əlaqələrinin qurulması və elmi-texnoloji yeniliklərin silah istehsalımıza tətbiq edilməsi yolunda vasitə rolunu oynayacaq.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

## NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı ser Stüart Piç:

# Bütün sahələrdə Azərbaycanla əməkdaşlığı davam etdirməkdə qərarlıyıq

İkinci Dünya müharibəsindən dörd il sonra 4 aprel 1949-cu ildə on iki ölkənin iştirakı ilə Vaşinqton Müqaviləsi imzalandı və Şimali Atlantika Müqaviləsi Təşkilatı rəsmi qaydada təsis edildi. Dövlətlərin müharibənin fəsadlarını aradan qaldırdığı bir zamanda, təsisçi ölkələr qarşılıqlı etimad göstərərək müdafiə Alyansını yaratdılar. Müharibə onlara birlikdə güclü olduqlarını anlatdı, beləliklə də bu ölkələr öz vətəndaşlarını və ərazilərini daha təhlükəsiz etdilər. Sonrakı yeddi onillik ərzində NATO özünün üç əsas vəzifəsini - kollektiv müdafiə, böhranların idarə edilməsi və birgə təhlükəsizliyi yerinə yetirir. Bu ilkin etimad Alyansın üzləşdiyi Soyuq müharibə, Balkan müharibələri, 11 sentyabr hücumları, ardınca isə Əfqanıstan və İraqa müdaxilə nəticəsində qurulmuşdur.

Sonrakı yetmiş il ərzində daha on yeddi ölkə Alyansa qoşulmuş, hazırda isə digər bir ölkə - Şimali Makedoniya Respublikası Alyansa daxil olma prosesindədir. Avropa və Şimali Amerika arasındakı həyati bağlantı NATO-nu tarixin ən güclü - ortaq tarix, dəyər və məqsədlərə malik olan Alyansına çevirmişdir.

Alyans genişləndikcə onun tərəfdaşlıq şəbəkəsi də inkişaf edərək, beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsində birlikdə çalışan və təşkilata üzv olmayan Avro-Atlantik məkanı, Aralıq dənizi hövzəsi, Körfəz regionu ölkələri və dünyanın bir çox yerindən olan digər tərəfdaşlarının sayı artmışdır. 1994-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun Mənzil Qərargahına səfər edərək NATO və Azərbaycan arasında tərəfdaşlığın əsasını qoyan "Sülh Naminə Tərəfdaşlıq" çərçivə sənədini imzaladı.



İyirmi beş il ərzində bu tərəfdaşlıq inkişaf edərək bu gün malik olduğumuz çoxşaxəli əlaqələrə çevrilmişdir. Alyans beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi işində bizimlə birlikdə çalışan Azərbaycanı yaxın, etibarlı və dəyərli tərəfdaş adlandırmaqdan qürur duyur. Bu illər ərzində Azərbaycanın əməliyyat və missiyalarımıza cəlb olunması nəticəsində, tərəfdaşlığımız və uyarlığımız inkişaf etmişdir. Sizin qoşunlar 1998-2008-ci illərdə Kosovo qüvvələri (KFOR) tərkibində NATO-nun başçılığı altında keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmişdir, 2002-ci ildən 2014-cü ilin sonunadək isə Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) əməliyyatında Alyans qüvvələri ilə çiyin-çiyinə dayanaraq bu günədək davam edən və Əfqan təhlükəsizlik qüvvələrinə təlim, məsləhət, eləcə də yardımı nəzərdə tutan Qətiyyətli Dəstək Missiyasına (RSM) dəstəyini davam etdirərək, Əfqan Milli Ordusu Etimad Fonduna töhfəsini verir, həmçinin ölkəniz NATO müttəfiqlərinə öz qoşunları, eləcə də tranzitlə quru, hava və Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yardım göstərir.

Tərəfdaşlığımız Müdafiə Təhsilinin Genişlənməsi Proqramımızda iştirakınız, milli mülki fövqəladə hal və fəlakətlərin idarə edilməsi imkanlarınızın inkişafı məqsədilə Avro-Atlantik Böhranlara Cavabvermə Koordinasiya Mərkəzimizlə əməkdaşlığınız, eləcə də qoşunlarınızın uyarlığının artırılması məqsədilə Tərəfdaşlığın Uyarlılıq Təşəbbüsümüzə cəlb edilməyiniz sayəsində möhkəmlənmişdir. Sizin Alyans ilə Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planını inkişaf etdirməyiniz, həmçinin Müttəfiq ölkələrlə əməliyyat və digər sahələrdə birgə fəaliyyət göstərə biləcək qüvvə və imkanlarınızın inkişafı məqsədilə Planlaşdırma və Analiz Prosesi üzrə öhdəçiliyiniz təqdirəlayiqdir. Bütün bu proqram və təşəbbüslər, Avro-Atlantik məkanda və onun hüdudlarından kənarda modernləşdirmə, təhlükəsizlik və sabitliyin təmin olunması sahəsində ölkənizin göstərdiyi səy və öhdəliklərin təzahürüdür.

Bu gün bizim praktiki əməkdaşlığımız potensialın inkişafından başlayaraq enerji təhlükəsizliyinin təmin edilməsi, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq, müdafiə institutunun qurulması, mülki fövqəladə planlaşdırma, elmi əməkdaşlıq və ictimai diplomatiyaya qədər olan bir çox sahələri əhatə edir. Seçdiyiniz bütün sahələr üzrə sizinlə işləməyi davam etdirməkdə qərarlıyıq.

NATO-nun tərəfdaşlığı onun üçün əhəmiyyətli olub və olacaqdır. Azərbaycanın NATO-nun etibarlı bir tərəfdaşı kimi son iyirmi beş ildə əldə etdiyi nailiyyət və tərəqqini, o cümlədən regional sabitliyin güclənməsində, habelə beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsində oynadığınız əhəmiyyətli rolu alqışlayıram. Əminəm ki, həm Alyans və həm də Azərbaycan son 25 ildə əldə etdikləri nailiyyətləri daha da inkişaf etdirərək bu tərəfdaşlığa töhfə verməyə davam edəcəklər. NATO-Azərbaycan əlaqələrinin daha da inkişaf etməsinə və ölkənizlə hərbi əməkdaşlığın dərinləşməsinə ümid bəsləyirəm.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# HHQ-nin aviabazasında komanda-qərargah təlimi keçirilib



*2019-cu ilin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) aviasiya bazalarından birində komanda-qərargah təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim zamanı aviasiya vasitələri hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı fəaliyyətdə qoşun qruplaşmalarının hava zərbələrindən müdafiəsi, şərti düşmənin hava hədəfləri, komanda məntəqələri, zirehli texnikası və canlı qüvvəsinin məhv edilməsi üzrə taktiki epizodları icra ediblər.



# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçiriləcək

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçiriləcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında bildirilir ki, plana əsasən şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edəcək, Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər təqdim olunacaq, elmi-praktik konfranslar, "dəyirmi masa"lar, iməciliklər və digər mədəni-kütləvi tədbirlər təşkil ediləcək.

# Faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə Azərbaycan Ordusunda bir sıra tədbirlər keçiriləcək

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçiriləcək.

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, şəxsi heyət tərəfindən Böyük Vətən müharibəsi illərində həlak olan həmvətənlərimizin xatirəsinə ucaldılan abidələr ziyarət olunacaq, müharibə veteranları ilə görüşlər keçiriləcək, onların qəhrəmanlıqları haqqında filmlər göstəriləcək və digər mədəni-kütləvi tədbirlər təşkil olunacaq.

# Müdafiə Sənayesi Nazirliyi "QFAB-250 LG" aviasiya bombasını ilk dəfə "IDEF-2019" sərgisində nümayiş etdirib

Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan "QFAB-250 LG" aviasiya bombasının inert nümunəsi İstanbulda keçirilən "IDEF-2019" sərgisində ilk dəfə nümayiş etdirilib və böyük maraqla qarşılanıb.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, lazer güdümlü, 250 kiloqram çaplı qəlpəli-fuqaslı aviasiya bombası nazirliyin Elmi-Tədqiqat İnstitutu ilə Türkiyənin "ASELSAN" şirkətinin birgə hazırladığı layihə əsasında yaradılıb. Aviasiya bombasının üç ədəd inert nümunəsi artıq hazırdır, bu nümunələrin sınaqlarının keçirilməsi planlaşdırılır. İnert nümunələrin sınaqları yekunlaşdıqdan sonra döyüş nümunələrinin sınaqlarının həyata keçirilməsi nəzərdə tutulur.

Uzunluğu 3300 millimetr, diametri 240 millimetr, kütləsi 270 kiloqram olan "QFAB-250 LG" aviasiya bombaları 12000 metrədək məsafədən hədəfi maksimum 10 metr sapma ilə vurmaq imkanı verəcək.

"QFAB-250 LG" aviasiya bombası NATO standartlarına uyğun yaradılıb. Bu məmulat daxili tələbat və ixrac üçün nəzərdə tutulur.

# Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin Silahlı Qüvvələrimizin yaradılmasında xidmətlərinə dair konfrans keçirilib

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Hərbi Prokurorluqda "Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasında Heydər Əliyevin xüsusi xidmətləri və Azərbaycan Silahlı Qüvvələrinin bu günü" mövzusunda elmi-praktiki konfrans keçirilib.*



Tədbirdə iştirak edən respublika hərbi prokuroru Xanlar Vəliyev, Milli Məclisin deputatları Musa Quliyev, İlham Məmmədov, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov, üzvü Bəhram Zahidov, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, sədr müavini Vahid Abdurəhmanov və Hərbi Prokurorluğun rəhbər vəzifəli işçiləri əvvəlcə Hərbi Prokurorluğun inzibati binasındakı Heydər Əliyev guşəsində Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, böyük şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra Ümummilli Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi prokuror Xanlar Vəliyev ümummilli lider Heydər Əliyevin çoxşaxəli, şərəfli, mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən, o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılması istiqamətində gördüyü nəhəng işlərdən söz açıb. Xanlar Vəliyev Ulu Öndərin müəyyənləşdirdiyi, Azərbaycanın parlaq gələcəyinə hesablanmış siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, o cümlədən ordu quruculuğunda əldə olunmuş mühüm nailiyyətləri diqqətə çatdırıb.

Natiq sonra bildirib ki, bir qərinədən də çox zaman kəsiyində ölkəmizə rəhbərlik etmiş ümummilli lider Heydər Əliyev təkcə həmin dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ümumxalq sevgisi və əbədiyaşarlıq qazanıb.

Ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birinin də Azərbaycanın təhlükəsiz gələcəyinə təminat, müstəqilliyinə zəmanət verən ordu quruculuğunun təşkil etdiyini vurğulayan Xanlar Vəliyev bildirib ki, müstəqilliyin ilk illərində ölkəmizin məruz qaldığı hərbi təcavüzün, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinin, habelə ölkə daxilində siyasi çəkişmələrin mövcud olduğu, vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə nicat axtaran xalqımızın yeganə ümidi olan ulu öndər Heydər Əliyev belə bir mürəkkəb vəziyyətdə - 1993-cü ildə xalqın israrlı çağırışı ilə respublika rəhbərliyinə qayıtdı. Əbədiyaşar lider dərin təfəkkürü, iti zəkası, polad kimi mətin iradəsi, müdrikliyə söykənən qeyri-adi cəsarəti və bənzərsiz qətiyyəti sayəsində millətimizi və dövlətimizi böyük bəlalardan xilas edərək Azərbaycanı keçmiş Sovet İttifaqından miras qalmış rejimdən çıxararaq güclü iqtisadiyyatı və Silahlı Qüvvələri olan demokratik, hüquqi və dünyəvi dövlətə çevrilməsinə müvəffəq oldu.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik siyasəti, mükəmməl rəhbərliyi, həmçinin gərgin əməyi və yorulmaz fəaliyyəti sayəsində respublikamızda reallaşdırılan islahatlar və əldə olunmuş böyük nailiyyətlərdən, ölkəmizin sürətlə və hərtərəfli inkişafından, dövlətimizin daha da qüdrətlənməsindən danışan Xanlar Vəliyev bildirib ki, Azərbaycan bu dövrdə misli görünməmiş uğurlar əldə edib, ölkənin müasirləşməsi istiqamətində mühüm layihələr icra olunub. Paytaxt Bakı ilə yanaşı, regionlar da sürətli inkişaf edib, insanların yaşayış və əmək şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb. Ölkədə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, dünya tarixi-mədəni irsinin inkişafına və tolerantlığa xüsusi önəm verilməsi, beynəlxalq hüquqa və dünyada mövcud olan siyasi dəyərlərə sədaqət Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla, dünya dövlətləri sırasında mövqeyini də gücləndirib. Ulu öndər Heydər Əliyevin mükəmməl ordu quruculuğu strategiyasının Ali Baş Komandan İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilməsi nəticəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilib, arsenalı ən müasir silah və digər hərbi texnika ilə zənginləşdirilib, şəxsi heyət dərin nəzəri biliklərə və peşəkar vərdişlərə malik hərbçilərlə komplektləşdirilib. İstənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırıldığını vurğulayan hərbi prokuror 2003-cü ildən bu günədək hərbi xərclərimizin 15 dəfə artmasından, Prezidentin təşəbbüsü ilə 20-dən çox hərbi zavodun yaradılmasından, bu zavodlarda istehsal olunan 1200 adda hərbi təyinatlı məhsulların hesabına ordumuzun potensialının gücləndirilməsindən, eyni zamanda, hərbi məhsullarımızın digər ölkələrə ixrac olunmasından, bununla yanaşı, xarici ölkələrdən ən müasir hərbi texnika və silahlar alınaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazasının daha da gücləndirilməsindən geniş söz açıb. Diqqətə çatdırılıb ki, 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin mayında Günnüt zəfəri, eləcə də yüksək səviyyədə keçirilən möhtəşəm paradlar Silahlı Qüvvələrimizin hərbi qüdrətini bütün dünyaya nümayiş etdirdi. "Global Firepower" təşkilatının ölkələrin ordularının potensialı ilə bağlı hazırladığı yeni hesabatda Gürcüstan 85-ci, Ermənistan 96-cı sırada qərarlaşdığı halda ordumuzun 52-ci yeri tutması Azərbaycan Silahlı Qüvvələrinin Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha təsdiqləyib. Bütün bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılmış köklü islahatlar və görülmüş zəruri tədbirlər sayəsində mümkün olub.

Xanlar Vəliyev bildirib ki, hazırda Silahlı Qüvvələrimizdə ciddi nizam-intizam var, qanunçuluq və hüquq qaydası möhkəmləndirilib, şəxsi heyətin peşəkar hazırlığı da, döyüş ruhu da yüksəkdir.

Ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlardan danışan Xanlar Vəliyev bu nailiyyətlərin qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Hərbi Prokuror Mehriban xanımın görkəmli dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin hərtərəfli və sürətli inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahının yaxşılaşdırılması, dövlətimizin, xalqımızın, mədəniyyətimizin və milli dəyərlərimizin bütün dünyaya tanıdılması istiqamətində zəngin və dəyərli fəaliyyətindən ətraflı söhbət açıb.

Milli Məclisin deputatları Musa Quliyev, İlham Məmmədov, professorlar Cəlil Xəlilov və Bəhram Zahidov böyük şəxsiyyət Heydər Əliyevin zəngin və mənalı həyatından, ali idarəçilik təcrübəsindən, çoxşaxəli fəaliyyətindən, onun uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

Konfransa yekun vuran Xanlar Vəliyev ötən il aprelin 11-də Azərbaycan xalqının növbəti dəfə düzgün seçim etdiyini, bu müdrik seçimin Ümummilli Liderə və Prezident İlham Əliyevə xalqın sonsuz inam və sevgisindən irəli gələn zərurətdən doğduğunu xüsusi vurğulayıb. Bildirilib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsində, o cümlədən dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə qanunçuluğun, hüquq qaydasının və hərbi intizamın daha da möhkəmləndirilməsində, qanunun aliliyinin təmin edilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan bu siyasəti daim dəstəkləyəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Naxçıvan Qarnizonundan xəbərlər

## "Ən yaxşı zenit-raket artilleriya batareyası"

2019-cu ilin döyüş hazırlığı planına əsasən, Naxçıvan Qarnizonunda yerləşən qoşunlarda "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda yarış keçirilib.

Yarışa daşınan zenit-raket komplekslərinin və 23 millimetrlik zenit qurğularının heyətləri, eləcə də hava düşmənini təqlid edən ordu aviasiyası cəlb edilib. Yarış zamanı şəxsi heyətin ixtisas hazırlığı üzrə praktiki bacarıqları və bilik səviyyəsi yoxlanılıb, normativlərin şərtinə uyğun fəaliyyətləri qiymətləndirilib.

## Orta məktəblərin şagirdləri təlim mərkəzində praktiki məşğələyə cəlb edilib

Məktəblilərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi məqsədi ilə Sədərək rayonunda fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri təlim mərkəzində praktiki məşğələyə cəlb ediliblər.

Məşğələ zamanı müxtəlif atıcı silahların, snayper tüfənglərinin, tank əleyhinə vasitələrin taktiki-texniki xüsusiyyətləri haqqında şagirdlərə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Sonra məktəblilər avtomatdan praktiki atışları yerinə yetiriblər.

## Naxçıvan Qarnizonu tam orta məktəbində tədbir keçirilib

Naxçıvan Qarnizonu tam orta məktəbində mütaliə aylığı çərçivəsində "Oxu günü" keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitablar" elmi-pedaqoji əhəmiyyətinə görə təlim-tərbiyə prosesində, eləcə də gənc nəsildə vətənpərvərliyin formalaşmasında mühüm rol oynayır.

"Oxu günü"nün keçirilməsində əsas məqsəd də şagirdlərdə mütaliə vərdişlərinin daha da inkişaf etdirilməsidir. Sonda şagirdlər oxuduqlarını müxtəlif səhnəciklər vasitəsilə canlandırıblar.

## Avtomobil texnika və qurğularına baxış-müsabiqəsi keçirilib

Əlahiddə Ümumqoşun Orduda səhra şəraitində əsgərlərin yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularına baxış-müsabiqəsi keçirilərək qaliblər müəyyənləşdirilib.

Hərbi hissə və bölmələr baxış-müsabiqəsində səyyar soyuducular, səyyar tipli çörək zavodları, su çənləri, səhra mətbəxləri və digər ləvazimatlarla iştirak ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri

*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-də "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərinin və qarşılıqlı anlaşmasının yüksək səviyyədə



saxlanılmasıdır.

Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb edilib.

## MSN-in nümayəndə heyəti "IDEF-2019" sərgisi çərçivəsində bir sıra görüşlər keçirib

Aprelin 30-da İstanbulda işə başlayan "IDEF-2019" XIV beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edən Azərbaycan Respublikasının Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev sərgiyə qatılan və Müdafiə Sənayesi Nazirliyinin (MSN) stendini ziyarət edən Ukraynanın "Ukroboronprom" şirkətinin baş direktoru Pavlo Bukin ilə görüşüb.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, görüşdə əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılıb.

Azərbaycan stendini ziyarət edən Cibutinin Müdafiə naziri Əli Həsən Bahdon ilə görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Əli Həsən Bahdon MSN tərəfindən nümayiş etdirilən məmulatları böyük maraqla izləyib.

## Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində maarifləndirmə tədbiri keçirildi

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində gənclər arasında vətənpərvərlik, milli-mənəvi və ailə dəyərlərinə hörmət hisslərinin aşılanması məqsədilə tədbir keçirildi.

Tədbirdə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri, Təlim və Tədris Mərkəzinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları, kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdi.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri polkovnik-leytenant Elvin Əzizov açaraq bildirdi ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq respublikamızda ailə, qadın və uşaq problemləri ilə bağlı bir çox uğurlu addımlar atılıb. Ailələrin sağlam qurulması, qadınların ölkəmizin ictimai həyatında fəal iştirak etməsi və uşaqlarımızın xoşbəxt gələcəyinin təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirilib.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva "Qloballaşmanın ailə institutuna təsiri: Azərbaycanda dövlət ailə siyasəti" mövzusunda çıxış edərək qeyd etdi ki, malik olduğumuz milli dəyərlərin kökündə, ilk növbədə ailə dayanır. "Bu gün dünyada baş verən hadisələr, internet, sosial şəbəkələr bizim milli-mənəvi dəyərlərimizə daha çox diqqət etməyimizi tələb edir."

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova və AMEA-nın Fəlsəfə İnstitunun şöbə müdiri Rəna Mirzəzadə ailə dəyərlərinin müqəddəsliyindən söz açdılar.

Sonda kursantlar da məsələ ilə bağlı fikir və mülahizələrini bölüşdülər.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*2 may 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*3 may 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Aşağı Əskipara, Məzəm kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şirvanlı, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il mayın 1-dək 99.064.301,66 manat, 213 min 577,88 ABŞ dolları, 16 min 336 avro və 5000 rubl vəsait yığılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Milli Qəhrəman Albert Aqarunovun anım tədbiri keçirildi

*Beynəlxalq Muğam Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş anım tədbiri Müdafiə, Mədəniyyət nazirliklərinin, Veteran Tankçılar Birliyinin, Dağ Yəhudiləri Dini İcmasının birgə təşkilatçılığı ilə reallaşdı.*



Tədbir iştirakçıları Beynəlxalq Muğam Mərkəzinin foyesində "Qarabağa qayıdış ümidi ilə" adlı rəsm sərgisi ilə tanış oldular.

Hərbi orkestrin müşayiəti ilə Dövlət himni səsləndirildikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Anım mərasimində açılış nitqi söyləyən Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov torpaqlarımızın azadlığı uğrunda canından keçən Albert kimi oğulların adının xalqımızın qəlbində əbədi yaşayacağını və onların adlarının əbədiləşdirilməsi istiqamətində daim mühüm addımlar atılacağını bildirdi.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Aydın Əyyubov çıxışında Azərbaycan vətəndaşlarının, gənclərinin Milli Qəhrəman Albert Aqarunovun igidliyinə hörmət əlamətindən, eyni zamanda, xatirəsinin daim yad edilməsindən, ona və ailəsinə dərin ehtiramın göstərildiyindən bəhs etdi. "Tankçı qəhrəman Albert Aqarunov xalqımızın sevgisini, rəğbətini və dərin hörmətini öz vətənpərvərliyi, cəsarəti, qorxmazlığı, yaşadığı Vətəninə sədaqəti, sadəliyi, təvazökarlığı və Azərbaycan xalqına səmimi sevgisi ilə qazanıb. Milli Qəhrəman Albert Aqarunov nümunəsi gənclərimizin mənəvi tərbiyəsində böyük iz buraxıb. Onun göstərdiyi qəhrəmanlıq, cəsurluq və rəşadət nümunələri bu gün də dillərdə əzbərdir. Xalqımız şəhid qəhrəmanının xatirəsini qəlbində daim yaşadır."

Çıxışında bu gün Vətən oğullarının düşmən işğalında olan torpaqlarımızın azad edilməsi naminə orduda böyük həvəslə və qürur hissi ilə xidmət etdiyini deyən zabit möhtərəm Prezidentimizin diqqəti sayəsində şücaətlər göstərmiş, düşmənlə mübarizədə canını fəda etmiş şəhidlərimizin xatirəsinin həmişə əziz tutulduğunu, onların adlarının əbədiləşdirilməsi, yüksək dövlət mükafatları ilə təltif olunması, ailələri ilə görüşlər keçirilməsini, istək və arzularının reallaşdırılması istiqamətində böyük işlərin görüldüyünü də qeyd etdi.

Albert Aqarunovun komandiri Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimov qəhrəmanın keçdiyi döyüş yolundan, xalqımıza, Azərbaycan torpağına olan sevgisindən danışdı. Onunla bağlı xatirələrindən söz açdı.

Hər il Albertin ad günü və şəhid olduğu tarixlərdə Azərbaycana gəldiyini deyən qəhrəmanın ailə üzvü Rantiq Aqarunov qardaşının burada xatirəsinin daima əziz tutulduğunu və onun adının əbədiləşdirilməsini hər zaman diqqətdə saxlayan Azərbaycan xalqına, ölkəmizin Prezidentinə minnətdarlığını ifadə etdi.

Qəhrəmanın xatirə tədbirində çıxış edənlər - Millət vəkili Yevda Abramov, İsrailin Azərbaycandakı səfiri Dan Stav, Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və digər qonaqlar İsrail-Azərbaycan əlaqələrindən, xalqlarımızın tarixi dostluğundan danışaraq Qarabağ, Şuşa uğrunda şəhid olan Albert Aqarunovun qısa, lakin şərəfli ömür yolunun gənc nəslə hər zaman örnək olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdılar.

Sonra Milli Qəhrəman A.Aqarunova həsr olunmuş sənədli film nümayiş olundu.

Xatirə tədbiri H.Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və Şuşa şəhər Mədəniyyət Mərkəzinin "Şuşanın dağları" ansamblının ifasında vətənpərvərlik mahnıları ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# AAHM-in Hərbi Dəniz Qüvvələri fakültəsinin kursantları beynəlxalq yarışda iştirak edirlər



*Türkiyə Respublikası Milli Müdafiə Universitetinin Hərbi Dənizçilik Məktəbində növbəti Beynəlxalq Dənizçilik Yarışları keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif ölkələrin ali hərbi dənizçilik məktəbləri nümayəndələrinin iştirak etdiyi yarışda ölkəmizi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Hərbi Dəniz Qüvvələri fakültəsinin komandası təmsil edir.

Üzgüçülük və gəmiçilik hərbi dəniz idman növləri üzrə keçirilən yarışlarda Azərbaycan, Banqladeş, Bolqarıstan, Cənubi Koreya, Çin, Böyük Britaniya, İtaliya, Oman, Pakistan və Türkiyə ali hərbi dənizçilik məktəblərinin nümayəndələri iştirak edirlər.

# XİN: erməni KİV-lərinin separatçı rejimin "naziri"nin Argentinaya səfərinə dair məlumatları özünüaldatmadan başqa bir şey deyil

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi erməni KİV-lərində qondarma separatçı rejimin "xarici işlər naziri"nin Argentinada görüşlər keçirməsi ilə bağlı yayılan məlumata münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva məsələ ilə bağlı şərhində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin "nümayəndəsi"nin Argentinaya səfəri ilə bağlı erməni KİV-lərində yayılmış məlumatların qanunsuz rejimin təşviqinə hesablandığını və özünüaldatmadan başqa bir şey olmadığını bildirib.

"Qeyd etmək istərdim ki, Argentinanın erməni icmasının Buenos Ayres Universitetinin hüquq fakültəsində təşkil etdiyi, uydurma "erməni soyqırımı"na həsr olunmuş tədbirlərdə iştirak edən separatçı rejimin "nümayəndəsi" Argentinada hər hansı rəsmi şəxslə görüşə nail olmayıb. Bundan əlavə, Argentinanın "Erməni İnstitutları" adlı təşkilatı Argentina Xarici İşlər və Etiqad Nazirliyinin aprelin 24-də dövlət qurumlarına ünvanladığı notanı dərc edərək öz dərin narahatlığını ifadə edib. Belə ki, Argentina Xarici İşlər və Etiqad Nazirliyi sözügedən notasında Argentinanın BMT Nizamnaməsinin 2-ci maddəsində əks olunmuş, digər dövlətin daxili işinə qarışmama və dövlətin ərazi bütövlüyünə hörmət prinsipinin suveren dövlətlər arasında münasibətlərin, həmçinin beynəlxalq sülh və təhlükəsizliyin fundamental sütunu hesab etdiyini və bu səbəbdən, Argentina Respublikasının öz müstəqilliyini elan etmiş "Dağlıq Qarabağ respublikası" və ya "Artsax"ı beynəlxalq hüquq çərçivəsində müstəqil və suveren dövlət kimi tanımadığını vurğulayır. Bununla əlaqədar, Dağlıq Qarabağın "xarici işlər naziri"ni qəbul etməmək və onunla rəsmi görüşlər keçirməmək tövsiyə olunur.

Göründüyü kimi, separatçı rejimin "nümayəndəsi" qanunsuz işğalçı rejimin beynəlxalq ictimaiyyət, o cümlədən Argentina tərəfindən tanınmadığının bu ölkəyə səfər edərək şəxsən şahidi olub.

# Media nümayəndələri Azərbaycan-Türkiyə birgə təlimlərini izləyiblər



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında Sazişə əsasən mayın 1-dən 3-dək keçirilən "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri işıqlandırmaq məqsədilə mayın 3-də kütləvi informasiya vasitələrinin nümayəndələri üçün taktiki təlim mərkəzinə səfər təşkil edilib.

Təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olan jurnalistlər yerinə yetirilən tapşırıqların icrasını canlı olaraq müşahidə məntəqəsindən izləyiblər.

# 2350 şəhid üzrə 3413 vərəsəyə də birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazirlikdə fəaliyyət göstərən komissiyanın növbəti iclasında daha 2350 şəhid üzrə 3413 vərəsəyə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib.

Onların siyahısı birdəfəlik ödənişin həyata keçirilməsi üçün aidiyyəti quruma göndərilib və birdəfəlik ödəmələrin 7 iş günü ərzində həmin vərəsələrin bank hesablarına köçürülməsi nəzərdə tutulur.

Ümumilikdə 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Onlardan artıq 70 faizdən çox hissəsinin, yəni 8688 şəhidin 12685 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

AZƏRBAYCAN ORDUSU

# "Əsgər Bayramı" tədbiri keçirildi



Aprelin 30-da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Əsgər Bayramı" adlı tədbir keçirildi. Tədbirdə dövlət rəsmiləri, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular, Gənclər və İdman Nazirliyinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Tədbir iştirakçılarına Silahlı Qüvvələrin qoşun növləri haqqında çəkilmiş videoçarxlar nümayiş etdirildi.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini İntiqam Babayev keçirilən tədbirin mahiyyətindən və gənclərimizin vətənpərvər ruhda böyüməsinin önəmindən danışdı.

Daha sonra xidməti dövründə fərqlənmiş Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları, o cümlədən Müdafiə Nazirliyindən mayor İlqar Nəhmədov, kapitan Elşən İsmayılzadə, baş leytenantlar Ariz Qəhrəmanov və Tamerlan Rəşidli diplom və hədiyyələrlə təltif edildilər. Xatirə şəkilləri çəkildi.



Sonda tədbir iştirakçılarına konsert proqramı təqdim olundu.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

## Mərkəzi Ordu İdman Klubunun rəsmiləri CISM-in 74-cü Baş Assambleyası və Konqresində iştirak ediblər

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 22-dən 30-dək Vyetnamın Xo Şi Min şəhərində Beynəlxalq Hərbi İdman Şurasının (CISM) 74-cü Baş Assambleyası və Konqresi keçirilib.

137 ölkənin üzv olduğu şuranın illik tədbirində Azərbaycanı Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) rəisi polkovnik-leytenant Rəşad Quliyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

MOİK rəsmiləri Baş Assambleya və Konqres çərçivəsində təşkil olunan debatlarda fəal iştirak edib, müəyyən məqamlarla bağlı toplanan təcrübəni bölüşüblər.

Qeyd edək ki, CISM dünya miqyaslı üçüncü hərbi idman təşkilatı, dünya səviyyəsində, qitələrarası və regional yarışları keçirən ən böyük idman təşkilatlarından biridir. Qurum 1948-ci il fevralın 18-də yaradılıb. Ali rəhbər orqanı hər il çağırılan Baş Assambleyadır. Qısa zaman ərzində fəaliyyətini genişləndirərək Beynəlxalq Olimpiya Komitəsi tərəfindən də tanınan şuranın məqsədi idman və fiziki məşqlər vasitəsilə iştirakçı ölkələr arasında daimi əlaqələr yaratmaqdır.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Zəka savaşı" bilik müsabiqəsi

*Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş "Zəka savaşı" adlı bilik müsabiqəsi keçirildi.*




Tədbirdə H.Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndələri və hərbi hissənin şəxsi heyəti iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Mehman Kərimov bildirdi ki, ulu öndər Heydər Əliyev XX əsrin dövlət xadimləri içərisində tarixi şəxsiyyətlər zirvəsinə qalxan siyasi lider və dövlət xadimidir. "Ulu öndər Heydər Əliyev Azərbaycanın və azərbaycanlıların Ümummilli Lideridir. Ulu Öndərin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip və norma kimi qəbul edən Ümummilli Liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Ulu öndər Heydər Əliyevin ölkəsinə və xalqına bəxş etdiyi misilsiz, əvəzedilməz dəyərlərin və sərvətlərin mahiyyətini daha dərindən anlamaq üçün isə, sadəcə, bir neçə fundamental önəm kəsb edən fakta toxunmaq kifayət edir...".

H.Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova bilik müsabiqəsi haqqında geniş məlumat verərək qeyd etdi ki, ulu öndər Heydər Əliyev gənclərin hamisi idi. "Ümummilli Liderin ölkəmiz üçün misilsiz xidmətlərindən söhbət açarkən, onun Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğı barədə danışmamaq olmaz. Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyev hələ respublikaya rəhbərlik etdiyi birinci dövrdə, yəni, ötən əsrin 70-80-ci illərində də Azərbaycanda gənclərin inkişafına, öz potensialını həyata keçirməsi üçün gənclərə şərait yaradılmasına daim diqqət yetirirdi. Ulu Öndər Azərbaycanın inkişafını heç vaxt gənclərsiz təsəvvür etmir, gəncliyin parlaq zəkasını, qaynar və tükənməz enerjisini Vətənimizin hərtərəfli yüksəlişinə səfərbər edirdi. Onun təşəbbüsü ilə gənclərin yüksək elm və biliklərə yiyələnməsi üçün bir neçə yeni ali məktəb, bir çox orta ixtisas məktəbləri açılmış, minlərlə azərbaycanlı gənc oğlan və qızlarımız ən müasir ixtisaslar üzrə keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində oxumağa göndərilmişdi. Milli zabit kadrların hazırlanması üçün xüsusi hazırlıq məktəbi açılmış, ali hərbi məktəblərdə gənc soydaşlarımızın təhsil alması üçün əlverişli şərait yaradılmışdı. Əməkdə və ictimai işdə fərqlənən gənclər irəli çəkilmişdi. Təsadüfi deyil ki, Azərbaycanın elmi potensialının böyük bir hissəsi, məhz, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə formalaşıb və bu gün həmin insanların çiyinləri üzərində qərar tutmaqdadır.

Ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra da gənclərə olan qayğısını davam etdirdi. 1993-cü ilin iyun ayında Azərbaycan parlamentinin sədri seçiləndən sonra ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşən Ümummilli Liderin çıxışı həm ölkə daxilindəki, həm də xaricdəki qüvvələrə təsirli bir mesaj oldu: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik".

Bilik müsabiqəsi "Həmlə" və "Hədəf" komandaları arasında keçirildi. Müsabiqədə "Həmlə komandası qalib gəldi.

Bakı qarnizonu hərbi hissələri arasında keçirilən yarışın final mərhələsi mayın 10-da H.Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzində keçiriləcək.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Ən böyük amalımız

Azərbaycan ərazisi dünya xəritəsində kiçik görünsə də, onun dövlətçilik tarixi min illərin o üzü ilə səsləşir. Bəşərilik tarixində Azıx mağarası dünyada etiraf edilən mədəniyyətin başlanğıcıdır. Bir xalqın fədakarlıqla əldə etdiyi müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan çətindir. Azərbaycan xalqı azadlıq, müstəqillik uğrunda gərgin mübarizələr aparıb. 1920-ci ildə rus imperiyası Azərbaycan Demokratik Cümhuriyyətini ilhaq etdi. Xalqın dönməz mübarizəsiylə Azərbaycanın dövlətçiliyi bərpa olundu.

Biz sərhədlərdə mərd və qorxmaz dayanmağı tarixdən öyrənmişik. Şəhidlərimizdən öyrənmişik. Müharibəyə görə torpaqlarımıza səngərlər düşüb. Əsgərlərimiz səngərlərdə Ali Baş Komandanın döyüş əmrini gözləyir ki, səngərləri sərhədlərə köçürsünlər! 20 Yanvar hadisələri zamanı insanlar meydanlara toplaşaraq Vətən torpağı üçün özlərini tankların altına atdılar - qorxmadan. Biz belə insanlardan öyrəndik Vətənimizi qoruyaraq sevməyi. Tabuta sarılı üçrəngli bayraq şəhidin əbədilik yol yoldaşı olur. Hər bir haqlı savaşın əsgərləri tarixlər yaradır.

Keçdiyimiz hər yolu, hər daşı, hər yeri torpaq deyib keçməməliyik - hər biri Vətəndir.

Vətən kəlməsi, Vətən anlayışı hər birimizə hələ beşikdəykən aşılanır. Ana laylalarından, oxşamalarından süzülüb gələn həzin nəğmələr ruhumuza hopur. Hər birimizə ailədə də, məktəbdə də vətənpərvərlik aşılanıb. Hər birimiz Vətəni sevirik.

Ən böyük amalımız torpaqlarımızı azad etməkdir!

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

Baş leytenant Hidayətov Ülvi Vasif oğluna verilmiş zabitin şəxsi vəsiqəsi və buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 381
Nüsxə 3950